DƏYİŞİKLİK ÜÇÜN LAYİHƏ




Dünyanın ən böyük dərsi

*Gücünüzü uşaqlarınızın qeyri-adi bacarıqlarını aşkar etmək üçün onları ruhlandırmağa istifadə edin. Bu il uşaqlarınızda hansı dəyişikliklər planlaşdırılır?*

**Kiran Sethi, Founder**
Dəyişiklik üçün layihənin təsisçisi,
Riverside məktəbi,
Əhmədabad, Hindistan

# Dəyişiklik üçün layihə: Bir ideya - bir həftə

## Mövzu

Bir həftəlik dərs planı "Dəyişiklik üçün layihə"ni sinfə gətirməyə sizə imkan verir.

DL (Dəyişiklik üçün Layihə) hər biri 45 dəqiqəqəlik dörd mərhələdə – Hiss et, Təsəvvür et, Et və Bölüş - aparılan 7 hissədən ibarətdir. Əgər imkanınız varsa, daha çox vaxt sərf edin. Planı çəkinmədən dəyişərək şagirdləriniz üçün ən optimal variantı tərtib edin.

Biz sizi şagirdlərin gözəl bir dünya üçün ən yaxşı ideyalarını ifadə etməyə və həyata keçirməyə kömək etməyiniz üçün həvəsləndiririk.
Şagirdləri fəal iştirak etməyə həvəsləndirin, onların səslərinin və ideyalarının eşidilməsinə şərait yaradın. Siz onların davranışına təəccüblənəcəksiniz, çünki super qəhrəmanlar təkcə nağıllarda deyil, "Mən bacarıram" deyən bütün uşaqların daxilindədir.

Ümumi vaxt:

7x**45** Dəq

Yaş həddi:

**8-14** yaş

“Dünyanın ən böyük dərsi” – Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinin elan edilməsi ilə əlaqədar birgə təhsil layihəsidir. Bu layihə 17-ci məqsədin “Dayanıqlı inkişaf naminə tərəfdaşlıq” məqsədinin mühümlüyünün canlı sübutudur və onun gercəkləşdirilməsi bizimlə və biri-biri ilə əməkdaşlıq edən tərəfdaşlarımızın köməyi olmadan mümkün olmazdı.

Layihənin təşkilatcılar qrupuna təşəkkür edirik:

Dünya üzrə bizimlə işləyənlərə xüsusi təşəkkürlər:

“Qlobal düçüncə” təşkilatının əməkdaşlığı ilə hazırlanmış dərs planları www.think-global.org.uk. Ədalətli və dayanıqlı sülhün təmin edilməsi məqsədi ilə təlimin təbliği.

# Dəyişiklik üçün layihə: Bir ideya - bir həftə

Əziz müəllim,

Bir həftəlik dərs planı “Dəyişiklik üçün layihə”ni sinfə gətirməyə sizə imkan verir. DL (Dəyişiklik üçün Layihə) hər biri 45 dəqiqəqəlik dörd mərhələdə – Hiss et, Təsəvvür et, Et və Bölüş - aparılan 7 hissədən ibarətdir. Əgər imkanınız varsa, daha çox vaxt sərf edin. Planı çəkinmədən dəyişərək şagirdləriniz üçün ən optimal variantı tərtib edin.

**Şagirdlərin əldə edəcəkləri bacarıqlar:** Liderlik, ünsiyyət, komanda işi, inam, tənqidi və yaradıcı təfəkkür.

## Birinci gün: Hiss et: Super qəhrəmanlar real həyatda

| Gün | Vaxt | Təsvir |
|---|---|---|
| 1 | **10 dəq** | 1. Uşaqları sevimli super qəhrəmanları haqqında sorğu-sual edin. Uşaqların çox sevdiyi super qəhrəman barədə fikir palyaşmalarına şərait yaradın.<br>2. Bundan sonra şagirdlərinizə super qəhrəmanların yalnız sehirli nağıllarda deyil, həmçinin gerçəklikdə də olduğunu deyin. Real həyatda olan bəzi super qəhrəmanların hekayələrini onlar üçün hazırlayın. |
| | **20 dəq** | **Problemin müəyyənləşdirilməsi və ruhlandırma**<br>Sonra şagirdlərinizə üç müxtəlif sahədə dəyişiklik etmiş uşaqlar haqqında bir neçə DL videoçarxını nümayiş etdirin.<br><br>**QEYD: Sinif otağınızda internetə çıxış imkanı olmadığı halda, hekayələri səhnəcik şəklində hazırlayın.**<br><br>1. **Şəxsi həyatlarında dəyişmək istədikləri:**<br>Məktəb çantalarının çəkisini azaltmaq: **http://bit.ly/1mFr4xr**<br>Həmyaşıdlarına futbolu oynamağı öyrətmək: **bit.ly/dfc-justforkicks**<br>2. **Oxuduqları məktəbdə dəyişmək istədikləri:**<br>Yardımçı heyətə hörmət: **http://bit.ly/Vfdmdi**<br>Məktəb yeməkxanasında qida (ərzaq) israfçılığına son qoymaq: **http://bit.ly/1sTROiF**<br>3. **Yaşadıqları cəmiyyətdə dəyişmək istədikləri:**<br>Yollarda çala-çuxurların doldurulması : **http://bit.ly/potholes-on-the-road**<br>Yağış suyu yığımının təşkili: **http://bit.ly/1kywiiQ** |
| | **15 dəq** | Bu videolara baxdıqdan sonra onlardan öz həyatlarında nələri dəyişmək istədiklərini yazmağı xahiş edin;<br><br>1. Şəxsi həyat<br>2. Məktəb<br>3. Cəmiyyət |



## İkinci gün: Hiss et: Real hədəflərə çatmaq

| Gün | Vaxt | Təsvir |
|---|---|---|
| 2 | 20 dəq | 1. Bu gün onlara düşündüklərini paylaşmağa icazə verin və böyük ideyaları lövhədə yazın.<br>2. Sonra dəyişik görmək istədikləri bir situasiyaya hamının səs verməsini xahiş edin. |
| | 25 dəq | **Real hədəflərə çatmaq**<br>1. Seçdikləri problemlərin müxtəlif səbəblərinin kollektiv müzakirəsi üçün uşaqları kiçik qruplara bölün.<br>2. Hər bir qrup öz müzakirəsinin nəticələrini təqdim edir və siniflə birlikdə müzakrə etmək istədiyini seçir. |

## Üçüncü gün: Təsəvvür et: Uğurları aydın görmək

| Gün | Vaxt | Təsvir |
|---|---|---|
| 3 | 45 dəq. | 1. Şagirdləri kiçik qruplara bölün və hər bir qrupdan 10 ideya təqdim etməyi xahiş edin. Müxtəlif ideyalara təşviq edin. Başqalarının ideyalarına əlavələr etməyə uşaqlara icazə verin. Şagirdlərinizə ideyalarını çəkməyə icazə verin, cünki bu, ideyanı daha yaxşı izah etmək imkanı verir. Ən çox ideya ilə çıxış edən komanda qalib olur.<br>2. Həyata keçirmək istədikləri ideyaya səs verməyi şagirdlərdən xahiş edin<br>İdeyalar tez təsirli, cəsarətli və uzunmüddətli olmalıdır. |

## Dördüncü gün: Et: Dəyişiklik edin

| Gün | Vaxt | Təsvir |
|---|---|---|
| 4 | 45 dəq | Şagirdlərə fəaliyyət planı hazırlamağa kömək edin.<br>1. Fəaliyyət planını mərhələlərə bölməyə şagirdlərə kömək edin. Hər addımı öncədən planlaşdırmağı uşaqlardan xahiş edin.<br>2. Uşaqlardan onlara lazım olacaq resursların siyahısını istəyin.<br>Şagirdlər onları necə əldə edəcək?<br>Neçə nəfər tələb olunacaq?<br>Nə qədər vaxt aparacaq?<br>Onlar öz işlərini necə sənədləşdirəcək?<br>3. Uşaqlardan hər birinə həvalə edilən vəzifələri soruşun:<br>Planlarda vaxt bölgüsünü nəzərə almağı xahiş edin. Kim nə edəcək?<br>Hansı mərhələ hansı zaman çərçivəsində həyata keçiriləcək? |



## Beşinci və altıncı gün: Et: Dəyişiklik edin

| Gün | Vaxt | Təsvir |
|---|---|---|
| 5 və 6 | 90 dəq | Uşaqlar çölə çıxır və fəaliyyət planını həyata keçirirlər.<br><br>Onların fəaliyyətlərini qeydə alın. Siz fəaliyyəti izləyə bilmək üçün diqqətinizi H.F.D.T.-yə yönəldin.<br><br>Hisslər, Fəaliyyət, Dəyişiklik və Transformasiya.<br>Hisslər: Siz insanların və ən yaxın yoldaşlarınızın hisslərini necə təsvir edə bilərsiniz?<br>Fəaliyyət: Fəaliyyət zamanı ən yaxın yoldaşlarınızı hədəf seçin.<br>Dəyişiklik və Transformasiya: İnsanlar necə dəyişdi?<br>Sizin icma, cəmiyyət necə transformasiya olundu? |



**Müəllim üçün məsləhət: İcra mərhələsində şagirdlərin dərsdən sonra və həftə sonu saatlarını planlaşdırmaq üçün köməyinizə ehtiyacı ola bilər. Seçilmiş layihədən asılı olaraq sizin də vaxtınızı planlaşdırmağınıza ehtiyac ola bilər.**

## Yeddinci gün: Paylaşmaq: Mən bacarıram! Siz də bacarırsınız!

| Gün | Vaxt | Təsvir |
|---|---|---|
| 7 | 45 dəq | Mübadilə dairəsi:<br>Son bir həftə ərzindəki təcrübələrini bölüşməyi uşaqlardan xahiş edin.<br>Dəyişikliklə bağlı hekayələrini təqdim etməyi xahiş edin.<br>DL-in uyğun formasında suallara cavab verməyi xahiş edin.<br>Səhər iclasında öz hekayənizi paylaşın. |

### Hekayənizi bizimlə paylaşın: www.challenge.dfcworld.com



Siz əlavə edə bilərsiniz:
Foto və sənəd (Power Point hər addım maksimum 4 foto (15 slide, 20MB)video/Youtube linki (3 dəqiqə)

### Yadda saxlayın:
**Dəyişiklik etməyin necə asan və əyləncəli olduğunu başqa insanlara göstərmək üçün fikrimizi cəmləyək.**

# İlhamlanın!

## Məktəb yolunda çuxurlar.

Qalib : Dəyişiklik üçün layihə, Hindistan 2012 | Orçid dövlət məktəbi, Mysore, Karnataka

Hekayə baxın: http://bit.ly/potholes-on-the-road

Sezmək: Məktəbə gedən yol çox kələ-kötürlüdür. Orçid dövlət məktəbinin şagirdləri məktəbə gedərkən yoldakı çuxurlara görə çox çətinlik çəkirdilər. Yol çox təhlükəli idi və tez-tez qəzalara səbəb olurdu.



Tələbələr müvafiq qurumlara tədbir görmələri üçün məktublar yazırdılar. Lakin, heç bir cavab almırdılar



TƏSƏVVÜR: Onlar yoldaşları və müəllimləri ilə ən yaxşı həll yolunu tapmaq üçün müzakirələr aparırdılar








Nə etməli: Onlar komandalara ayrıldı. Bir qrup qazma işləri ilə, digəri isə qır hazırlamaq işləri ilə məşğul oldu.



Nə etməli: Onlar tapa bildikləri bütün materialları yığdılar və bir çox səhvlər və sınaqlarda sonra çuxurları düzəltmək üçün ən yaxşı yolu tapdılar.




Çoxlu ağır işlərdən sonra şagirdlər hamar və hamı üçün təhlükəsiz yolun əmələ gəlməsinə nail oldular



"Bizi təsirləndirən, bu uşaqların birbaşa onlara ziyan verən çətinlik üçün cəsarətli həll yolu tapmaqları oldu. Onlar hərəkətə keçib ən yaxşı həll yolu tapmağı qərara aldılar."

- M P Ranjan, Layihə rəhbəri, Münsif.



"Bu hadisə ona görə qalib gəldi ki, şagirdlər nümayişlərdən kənar bir həll yolu tapıb tətbiq etdilər. Bu da onlara gələcək çətinliklərin öhdəsindən gəlməyə kömək oldu. Bu "MƏN BACARARAM" ifadəsinin qüvvəsidir."

- Christian Long, Cannon Design, Münsif.